# Vətənə sədaqətlə xidmət nümunəsi

**General-mayor Dadaş Rzayev haqqında bu yazını yazarkən 90-cı illərdə görüşüb söhbət etdiyim əfsanəvi təyyarəçi, xalqımızın qəhrəman oğlu Məzahir Abasovun dediyi sözləri xatırladım. “Hərbçi olmurlar, hərbçi doğulurlar!”**

**Bu sözü müharibənin odundan-alovundan çıxmış, adı hərb tarixinə qızıl hərflərlə yazılmış bir insan deyirdi.**



1935-ci ildə Goranboy rayonunun Dəliməmmədli qəsəbəsində doğulmuş Dadaş Qərib oğlu Rzayev də hərbçi ruhuyla bu dünyaya gəlib. Uşaqlıq illərindən öz çevikliyi, cəsarəti, hazırcavablığı, nizam-intizamı ilə yaşıdları arasında seçilən bu oğlan hələ orta məktəbdə oxuyarkən ər yolu gözləyən anaların göz yaşlarını, arxa cəbhədə gecə-gündüz çalışan qadınların, qocaların əzab-əziyyətlərini, məşəqqətlərini görmüş, cəbhədən gələn qorxunc “qara kağız”ların kölgə saldığı üzlərdən, təlaş dolu gözlərdən müharibənin hansı fəlakətlər gətirdiyini duymuşdu. Əslində müharibə o illərdə doğulmuş uşaqların bir çoxunun bəxtinin, taleyinin, arzularının üstündən qara xətt çəkmişdi. Ata əvəzi bu oğlanlar indi evin kişisi sayılırdılar...

Dadaş Rzayev də çətin uşaqlıq illəri keçirmişdi. Lakin o, oxumaq, zirvələrə doğru qanadlanmaq arzusu ilə yaşayırdı. Orta məktəbi bitirən kimi Azərbaycan Sənaye İnstitutuna qəbul edildi. 1954-cü ildə onu ordu sıralarına çağırdılar. Uşaqlıqdan təyyarəçi olmaq arzusu ilə yaşayırdı. İndi isə Hərbi Hava Qüvvələri qoşunlarında xidmət edəcək gənc əsgəri çətin sınaqlar gözləyirdi. Amma Dadaş Rzayev bu çətin sınaqlardan alnıaçıq, üzüağ çıxdı. Dərin biliyi, hərtərəfli hazırlığı komandanlığın diqqətini cəlb etdi. Üstəlik Qafqaz çılğınlığı, qətiyyəti, mərdliyi, sözübütövlüyü ona qarşı xüsusi rəğbət oyadırdı. Nümunəvi hərbi xidmət keçdiyinə görə onu tezliklə ali hərbi təhsil almaq üçün yeni yaradılan Hərbi Hava Desantçıları məktəbinə göndərdilər. Dadaş Rzayevin əsl istedadı, hərtərəfli hazırlığı burda da özünü göstərdi. İkinci kursda oxuyarkən onu tağım komandirinin müavini təyin etdilər. Sonralar bu məktəbi bitirən 400 məzunun arasında ilk “Qızıl Ulduz” ordenini alan da Dadaş Rzayev olacaqdı. Hələ keçmiş çar ordusu vaxtından da azərbaycanlılara olan münasibəti yaxşı bildiyimizdən Dadaş Rzayevin yalnız öz istedadı ilə bu qədər hərbçilər arasından seçilməsinin, fərqlənməsinin hansı titanik zəhmət hesabına başa gəldiyini təsəvvür etmiş olarıq.



Leytenant rütbəsilə Yefremov şəhərinə tağım komandiri göndərilən Dadaş Rzayev bir ildən sonra Orta Asiyadakı polklardan birinə köçürülür. Nümunəvi xidməti ilə fərqlənən gənc zabitin qəlbində bir arzusu var idi: Doğma Azərbaycanda xidmət etmək. Bu arzusunu polklarında növbəti yoxlama aparan komandana bildirən Dadaş Rzayev müsbət cavab alır.

Zaqafqaziya Hərbi Dairəsinin Gəncə şəhərində yerləşən 104-cü diviziyasına köçürülür.

Qazandığı uğurlarla kifayətlənməyən cavan zabit yeni arzularla yaşayır, gecə-gündüz əzmlə çalışırdı.

1970-ci ildə Moskva şəhərində M.F.Frunze adına Ali Hərbi Akademiyaya daxil olan Dadaş Rzayev burada təhsil alan 350 nəfər arasında yeganə azərbaycanlı idi.

XX əsrin 70-ci illəri olmasına baxmayaraq, SSRİ Müdafiə Nazirliyində hələ də azərbaycanlılara qarşı etimadsızlıq, qısqanclıq, qadağa prinsipi hökm sürürdü.

Azərbaycanlıları hər yerdə aerodrom kepkada, göyərti, mer-meyvə, gül alverçisi kimi təsvir edən yuxarı dairələrin baş suflyorları isə mərkəzi komitəyə, müdafiə nazirliyinə soxulmuş türkün düşməni olan ermənilər idilər.

Bunu ilk öncə duyub dərk edənsə 1969-cu ildə Azərbaycan KP MK-nın birinci katibi seçilən xalqımızın qüdrətli oğlu Heydər Əlirza oğlu Əliyev olmuşdu. Yetmişinci illərdən başlayaraq azərbaycanlı gənclərin SSRİ-nin bir sıra qabaqcıl ali təhsil ocaqlarına, hərbi məktəblərinə təhsil almaq üçün göndərilməsi də birbaşa onun təşəbbüsü idi.

Heydər Əliyev “Rus artileriyasının atası” sayılan general Səməd bəy Mehmandarovu, əfsanəvi generallar Əliağa Şıxlinskini, Cəmşid Naxçıvanskini, iki dəfə Sovet İttifaqı Qəhrəmanı general-mayor Həzi Aslanovu yetirən bir xalqın övladlarına qarşı etimadsızlıq göstərilməsinə dözə bilməzdi. Bu uzaqgörənliyin nəticəsini isə biz sonralar görəcəkdik.

1973-cü ildə M.F.Frunze adına Ali Hərbi Akademiyanı əla qiymətlərlə bitirən Dadaş Rzayev Sovet ordusunda 5 min nəfər şəxsi heyəti, 120-yə yaxın hərbi vertolyotu olan əlahiddə qırıcı hərbi hava desantçıları briqadasının komandiri təyin edilir. Bu yüksək hərbi vəzifədə də Dadaş Rzayev növbəti “ilk”ə imza atır. Yeganə azərbaycanlı olaraq əlahiddə desant-paraşüt briqadasının komandiri kimi general hərbi rütbəsinə yüksəlir. Sonralar bir sıra xarici ölkələrdə hərbi tapşırıqları yüksək professionallıqla və qüsursuz yerinə yetirdiyinə görə general Dadaş Rzayev üç xarici ölkənin orden və medallarına layiq görülür.

Ermənilərin xalqımıza qarşı etdiyi xəyanət nəticəsində başlayan Qarabağ savaşı, 1990-cı il 20 Yanvar qırğınları milli duyğuların oyanışına, respublikamızdan kənarda Sovet ordusu sıralarında xidmət edən əsgər və zabitlərin vətənin səsinə, harayına qoşulmasına şərait yaratdı. General-mayor Dadaş Rzayev də doğma xalqına olan haqsızlığa etiraz əlaməti olaraq Sovet Ordusu sıralarından ayrıldı. Bu çətin məqamda ana vətənin çağırışına qoşuldu.

Azərbaycan hökumətinin dəvəti ilə təcrübəli hərbçi, general Dadaş Rzayev Qarabağa Xalq Yardımı komitəsində çalışmağa başladı.

1991-ci ildə müdafiə nazirinin birinci müavini, özünümüdafiə qoşunlarının komandanı olan, 1993-cü ildə isə Azərbaycan Respublikasının müdafiə naziri vəzifəsinə təyin edilən general-mayor Dadaş Rzayev həm torpaqlarımızın erməni işğalçılarından təmizlənməsində, həm ordunun professional hərbçi kadrlarla komplektləşdirilməsində, həm də keçmiş Sovet qoşunlarının Azərbaycan ərazisindən çıxarılmasında müstəsna xidmətlər göstərdi.

General-mayor Dadaş Rzayevin 1991-ci il avqustun 8-də Gədəbəyin Başkənd qəsəbəsinin ermənilərdən təmizlənməsində göstərdiyi şücaəti və cəsurluğu xüsusi qeyd etmək lazımdır. Ermənilərin çoxlu silah-sursat topladığı, az qala keçilməz qalaya çevrilən, böyük strateji əhəmiyyət kəsb edən bu qəsəbənin qısa müddətdə ələ keçirilməsi general Dadaş Rzayevin əsl hərbçi istedadından xəbər verirdi. O dövrdə yaranmış mürəkkəb vəziyyət, xaos, özbaşınalıq, hərb işindən xəbəri olmayan naşı adamların iş başına gətirilməsi ölkəni təhlükə qarşısında qoydu. Belə bir vaxtda—1993-cü ilin iyun ayında tutduğu vəzifədən istefa verən general Dadaş Rzayev ehtiyatda olan zabitlər konfederasiyasının sədri seçildi.

Xalqımızın böyük oğlu Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ölkəni dağılmaqdan xilas etdi. Xüsusilə onun ayrı-ayrı vaxtlarda xalqa müraciəti yurdunu, millətini sevənləri, Azərbaycanın taleyinə biganə olmayanların hər birini səfərbər etdi. Ehtiyatda olan general-mayor Dadaş Rzayev də bu çağırışlara biganə qalmadı. Veteran zabitlərlə birlikdə bir çox görüşlərdə iştirak etdi, gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunması yolunda geniş təbliğat işləri apardı.

2013-cü ildə Respublika Veteranlar Təşkilatı Rəyasət Heyətinin üzvü, 28 yanvar 2014-cü ildə isə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının II plenumunda təşkilata sədr seçilən general Dadaş Rzayev illər uzunu qazandığı bilik və bacarığını, təcrübəsini bu gün veteran hərəkatına sərf etməyə çalışır.

Uşaqlıq illəri İkinci Dünya Müharibəsi dövrünə təsadüf edən general Dadaş Rzayev insanların çəkdiyi əzab-əziyyətləri öz gözlərilə gördüyündən hər bir müharibə, əmək veteranlarına qarşı son dərəcə diqqətli və qayğıkeşdir. Qapısı hər bir kəsin üzünə açıqdır. Səmimiliyi, sadəliyi, mehribanlığı ilə seçilən general Dadaş Rzayev tez-tez müharibə və əmək veteranlarının iştirakı ilə görüşlər keçirir, onların qayğı və problemləri ilə maraqlanır, gənclərimizi atalarımızın keçdiyi şərəfli döyüş yolunu unutmamağa, vətənə sevgini, sədaqəti onlardan öyrənməyə çağırır.

General Dadaş Rzayev rəhbərlik etdiyi təşkilatı öz doğma evi, ocağı sayır. Təşkilat barədə öz ürək sözlərini belə bölüşür: “Bu təşkilat cəmiyyətdə yeri və yüksək möqeyi, dövlət və xalq qarşısında xidmətləri olan veteranları özündə birləşdirir. Onların zəngin həyat və iş təcrübəsinə dövlətin və cəmiyyətin həyatının bütün sahələrində böyük ehtiyac vardır. Biz zəngin praktiki mənbə olan veteranlarla dövlət arasında əlaqə yaradan bir körpüyük desəm, yanılmaram. Dövlət də öz növbəsində bu körpünün, necə deyərlər, işlək və səmərəli olmasında maraqlıdır. Buna görə də onun fəaliyyətinə yardım edir, işin effektli, tələbata uyğun təşkil olunması üçün lazımi dəstəyi verir. Bir fakta diqqət edin, görün ki, bu təşkilatın rəhbərliyini uzun illər boyu ictimaiyyət arasında necə mühüm mövqeyi olan şəxslər təmsil etmişlər. Tanınmış hərbi xadimlər—Sovet İttifaqı qəhrəmanı Aslan Vəzirov, generallar Akim Abbasov, Mustafa Nəsirov, Bahadur Hüseynov, Böyük Vətən Müharibəsinin fəal iştirakçıları—Baloğlan Rüstəmov, Əlovsət Baxışov. Məhz bu cür bacarıqlı, vətənsevər, yüksək təşkilatçılıq və zəngin bilik sahiblərinin böyük əməyi sayəsində veteranlar təşkilatı daim genişlənib, möhkəmlənib, tanınıb, ölkə həyatının bütün sahələrində yeri olan lazımi quruma çevrilib.

Veteran sözünün mahiyyətinə fikir versəniz, onun çox mühüm həyati məzmunları özündə əks etdirdiyinin şahidi olacaqsınız. Hər şeydən öncə bu ifadə özündə böyük iş təcrübəsini və bugünkü inkişafın təməl daşları olan yaxın tariximizin canlı şahidləri mövzusunu, daha sonra isə dünənimizə qayğını və sahib çıxmağımızı özündə ehtiva edir. Veteran fəaliyyəti dünənimizi bugünlə birləşdirən və gələcəyə etibarlı körpü yaradan bir hərəkat, cəmiyyətin zəruri vətənpərvərlik, həyat və fəaliyyət təcrübəsi məktəbidir. Yəni hər bir veteran nəsillərə örnək olacaq vətəni müdafiədə, əmək və xidmətdə nümunəvi fəaliyyətin daşıyıcısıdır. Xalqımızın böyük oğlu Heydər Əliyev buna görə, onlara daim qayğı göstərmişdir. Ümummilli lider dövlət idarələrinin və ictimaiyyətin diqqətini veteran təşkilatına vacib bir fəaliyyət sahəsi kimi yönəldərək demişdir: “Azərbaycanın bütün ictimaiyyəti, bütün Azərbaycan xalqı bilməlidir ki, İkinci Dünya Müharibəsinin—Böyük Vətən Müharibəsinin veteranları ən əziz, ən mötəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək, onların bütün problemlərini həll etmək bizim dövlətin, hər bir dövlət orqanının, hər bir namuslu Azərbaycan vətəndaşının borcudur”.

General Dadaş Rzayev İkinci Dünya Müharibəsində Sovet xalqının qələbəsinin 70 illik yubileyində müharibə iştirakçılarının sosial problemlərinin həlli məqsədilə Dövlət Sosial Müdafiə Fondu, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Milli Məclisin Sosial Siyasət, Hüquq Siyasəti və Dövlət Quruculuğu komitələrinin rəhbərləri ilə görüşlər keçirərək, veteranların mənafelərinin, sosial imtiyazlarının və hüquqlarının qorunması sahəsində konkret təkliflər vermişdir.

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı sədrinin müavini, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru Cəlil Xəlilov 80 yaşı tamam olan general-mayor Dadaş Rzayevin bu gün gördüyü işlərdən danışır: “Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, ehtiyatda olan general Dadaş Qərib oğlu Rzayev tağım komandirindən Azərbaycan Respublikasının müdafiə naziri vəzifəsinə kimi şərəfli bir yol keçmişdir.

General Dadaş Rzayev 80 yaşında da gənclik şövqü ilə çalışır. 1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyinə hazırlıq və yubileyin qeyd olunması üzrə təsdiq edilmiş tədbirlər planının nəzərdə tutulmuş nazirliklər və təşkilatlarla birgə həyata keçirilməsində onun müstəsna əməyi olmuşdur.



Respublika Veteranlar Təşkilatı ilə Müdafiə, Mədəniyyət və Turizm, Gənclər və İdman, Təhsil, Daxili İşlər, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri, Milli Elmlər Akademiyası, Dövlət Sərhəd Xidməti, Dövlət Neft Şirkəti, Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən birgə elmi-praktik konfranslar, beynəlxalq konfranslar təşkil edilmiş, Azərbaycan xalqının qələbənin qazanılmasında tarixi roluna dair bir neçə kitab və jurnalların çap olunmasına, 1941-1945-ci illər müharibəsi veteranlarının xidmətləri barəsində kinofilmlərin çəkilişinə nail olunmuşdur.

General Dadaş Rzayev Azərbaycan Veteranlar Təşkilatının Beynəlxalq aləmdə tanınması istiqamətində də böyük işlər görür. Dünya Veteranlar Federasiyasının və MDB Veteranlarının Əlaqələndirmə Şurasının işində fəal şəkildə iştirak edib.

O, Azərbaycan dövlətinin Müharibə və Əmək Veteranlarının Sosial problemlərini mütəmadi olaraq həll etdiyini dəfələrlə beynəlxalq konfranslarda təkzibolunmaz faktlarla bəyan etmişdir.

Azərbaycan xalqına və dövlətçiliyinə qarşı yönəlmiş bütün neqativ mövqelərə qarşı sərt bəyanatlar vermişdir.

Qələbənin 70 illik yubileyi ərəfəsində bir sıra MDB və Qərb ölkələrində 1941-1945-ci illər Böyük Vətən Müharibəsində Sovet xalqlarının tarixi qələbəsinin rolunu azaltmağa çalışan, tarixi saxtalaşdıran neofaşistlərin hərəkətlərinə cavab olaraq respublikanın veteranları tərəfindən MDB dövlətlərinin prezidentlərinə, şəxsən Rusiya Federasiyasının prezidenti Vladimir Putinə və Rusiya ictimaiyyətinə Azərbaycan müharibə veteranlarının müraciəti göndərilmişdir. Bu da ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır.

Rusiya Federasiyasının Xarici İşlər Nazirliyi də, Rusiya hökuməti də bu müraciətə öz rəsmi mövqeyini bildirmiş, həmin münasibəti müsbət hal kimi qiymətləndirmişlər.

Dadaş Rzayev Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirak edir, güc strukturlarında xidmət edən zabitlər arasında böyük nüfuza malikdir. Tez-tez hərbi hissələrdə əsgər və zabitlərlə, hərbi məktəblərdə kursantlarla, ali məktəb tələbələri ilə görüşlər keçirir, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasəti, vətənpərvərlik işini fəal surətdə təbliğ edir, ali baş komandanın hər bir əmrinə hazır olmağı gənclərin diqqətinə çatdırır.

General Dadaş Rzayev tez-tez cəbhə bölgələrində olur, əsgər və zabitlərlə görüşür. Onların məişət şəraiti ilə tanış olur, hərbi hissənin yeməkxanasına və əsgər yataqxanasına baş çəkir. Müşahidə məntəqələrinə gələrək düşmən mövqeyini izləyir. Düşmənlə üz-üzə xidmət edən əsgərlərimiz ilə söhbət edir, onların gündəlik qayğıları ilə maraqlanır. Onlara cəsarətli olmağı, vətənin keşiyində ayıq-sayıq dayanmağı, nizam-intizamlı və özlərinə qarşı tələbkar olmağı tövsiyə edir”.

Biz də ömrünün ən müdrik çağlarını yaşayan general-mayor Dadaş Rzayevə cansağlığı, uzun ömür, gördüyü şərəfli işlərdə yeni-yeni uğurlar arzulayırıq.

**Zülfüqar ŞAHSEVƏNLİ,**
**“Respublika”.**